Diploma Programme
Programme du diplôme
Programa del Diploma

# Azerbaijani A: literature – Higher level – Paper 1
# Azerbaïdjanais A : littérature – Niveau supérieur – Épreuve 1
# Azerí A: literatura – Nivel superior – Prueba 1

Friday 8 May 2015 (afternoon)
Vendredi 8 mai 2015 (après-midi)
Viernes 8 de mayo de 2015 (tarde)

2 hours / 2 heures / 2 horas

---

### Instructions to candidates

- Do not open this examination paper until instructed to do so.
- Write a literary commentary on one passage only.
- The maximum mark for this examination paper is **[20 marks]**.

### Instructions destinées aux candidats

- N'ouvrez pas cette épreuve avant d'y être autorisé(e).
- Rédigez un commentaire littéraire sur un seul des passages.
- Le nombre maximum de points pour cette épreuve d'examen est de **[20 points]**.

### Instrucciones para los alumnos

- No abra esta prueba hasta que se lo autoricen.
- Escriba un comentario literario sobre un solo pasaje.
- La puntuación máxima para esta prueba de examen es **[20 puntos]**.



2215 – 0509
© International Baccalaureate Organization 2015

International Baccalaureate®
Baccalauréat International
Bachillerato Internacional

https://xtremepape.rs/

Ardıcıl mövzulardan **birini** şərh edin:

**1.**

Oğlum o dərəcədə məndən narazı imiş ki, mən almaları ona verəndən sonra da genə bir söz danışmaq istəmədi və mən ona verdiyim suallara da çox meyilsiz cavab verdi.

Dəxi onu belə qaşqabaqlı görəndə mən özüm də bidamağ oldum və Azərneft idarəsinin qabağında duran tramvay vaqonlarının birinə oğlumu qalxızdım və özüm də mindim ki, gələk evimizə.

Vaqonda hələ bizim ikimizdən başqa heç kəs yox idi. Oğlum boyda bir yetim rus uşağı cır-cındır içində, üz-gözü qap qara, çirkli və iyrənc, gəldi durdu qabağımızda və məndən bir qəpik pul istədi.

Cibimdə ancaq bir abbası gümüş pul var idi. Mən uşağa bir söz demədim ki, keçib getsin. Bir neçə minik arvad və kişi vaqona girdilər və sağımızda-solumuzda yer tutdular. Burada mənim fikrim getdi yetimə pul verməməyimə və dilənçiyə pul vermək lazımdı, ya lazım deyilmi məsələsi məni başladı məşğul etməyə; hər kəs nə deyir desin, ancaq dilənçi uşağa heç bir şey verməmək mənim xoşuma gəlmədi. Buradan ona işarə etmirəm ki, mən heç bir dilənçiyə yox demərəm; çünki ola bilər ki, bir para filosofların dilənçiyə pul vermək, onu bədbəxt etmək sifətı bəlkə mənə də sirayət edibdir. Ancaq sözün həqiqəti budur ki, bu günkü dilənçi uşağa bir qəpik verməməyim məni burada xarab etdi; o səbəbə xarab etdi ki, haman dilənçi uşaq yaşda mənim atalı və analı oğlum, əyni-başı təzə, qarnı tox, bu saat ona konfet almadım, ancaq iki alma aldım.

Vaqonumuz hərəkət edib gedəndə akoşkanın şüşəsinin dalından gördüm ki, haman dilənçi uşaq yerdə durub, bir qırmızı almanı ağzına basıb gəmirtləyir. Qabaqca bir şey duymadım; amma haman dəqiqə yanımdakı oğlumun almaları yadıma düşdü və cöndüm uşağa tərəf. Oğlum gülə-gülə mənə yavaşca bunu dedi:

-Dədə, almanın birini verdim dilənçi uşağa.

Bir dənə qırmızı alma öz-özlüyündə bir şey deyil; onun qiyməti iki qəpikdir və yeyib qurtarandan sonra heç bir şeydir. Amma mənəvi işlərdə bir almanın dəyəri ola bilər çox böyük olsun. O qədər yüngüllük və könül xoşluğu ki, burada iki qəpiklik almadan mənə gəlib çatdı, nəhayət dərəcədə idi.

Filosofiya aləminə gəldikdə, qeyriləri dilənçiyə küçədə ianə verməyi nə cür başa düşürlər düşsünlər və insaniyyət mütəxəssisləri bu məsələni nə tövr həll edirlər etsinlər, ancaq mənim bir balaca oğlum iki almasının birisini bir yetim uşağa verdi.

Və ola bilər ki, oğlum da yekələndən sonra, bir para alimlərin “küçədə dilənçiyə ianə verməyiniz” nəsihətini eşidəndən sonra, onları küçədə görəndə mənim kimi üz çöndərəcəkdir. Ancaq hələ ki, indi oğlum bu işləri başa düşmür və onunçun da iki almanın birini yetim uşağa verir.

Mirzə Cəlil Məmmədquluzadə, *İki Alma* (2008)

https://xtremepape.rs/

**2.**

## Yoxdu

“Xəstə yox, xəstədir xəstəyə baxan” –
atalar sözünün əvəzi yoxdu.
Təbiət gücsüzdü, həkim köməksiz,
kimin ki, yaşamaq həvəsi yoxdu.

Xəstə var, dindirsən yaxşıyam deyər,
xəstə var, səni də xəstə eləyər.
Oturub inləyər, qalxıb inləyər,
dilində bir həyat nəğməsi yoxdu.

Hardasa əyilmir, məğrurdu insan,
bir ömür nədir ki, qorxasan ondan.
“Boşalır bir yandan, dolur bir yandan”,
hələ qanunların təzəsi yoxdu.

İnsan var, yaşayır yüz il, yüz beş il,
həyata çağırır hər təzə fəsil.
Ömür – imtahandı, danış ya kəsil,
həyatın heç kəslə qərəzi yoxdu.

Dünyaya gələnə dünya dar deyil,
dünyadan gedənə günahkar deyil.
Eşidir şairi, dünya kar deyil:
görünür, bir özgə çarəsi yoxdu.

Nəriman Həsənzadə, *Gəlimli Gedimli Dünya* (1995)

https://xtremepape.rs/